# DAĞLAR, MƏMMƏD AMANATI

## *Şair Məmməd İlqarın yaradıcılığı ətrafında düşüncələr*




**İlhamə Qəsəbova**
*Filologiya üzrə fəlsəfə doktoru*


Uşaq yaşlarından şeirə böyük marağı olan və artıq gənc yaşlarından rayon qəzetlərində şeirləri çap olunan Məmməd İlqar Bakıya gəldikdən sonra ədəbiyyat camesinin bir çox məşhur imzalarıyla tanış olur və ara sıra şeirləri o dövrün qəzet və jurnallarında "Azərbaycan", "Gənclik", "Ulduz", "Ədəbiyyat və İncəsənət" qəze-



tində çap olunmağa başlayır. 1991-ci ildə "Məni Baxtıma Tapşırma" adlı ilk şeirlər kitabı işıq üzü görür. 2000-ci ildə "Biz Ölməyə Doğuluruq", 2002-ci ildə "Quzey qönçəsi" şeirlər kitabı oxucuların ixtiyarına verilir. 2010-cu ildə isə Birinci Qarabağ Savaşı dövründə Qazağın Aşağı Əskipara kəndində erməni quldurlarına əsir düşməmək üçün özünü əl mərmisiylə məhv etmiş döyüşkən əsgər, Azərbaycan Bayrağı Ordenli Şəhid Qaratel Hacımahmudovaya həsr olunmuş "Qaratel" poeması işıq üzü görmüşdür.

Yaradıcılığa gənc yaşlarından başlayan Məmməd İlqar deyəndə öncə nədənsə aşıq şeiri, sonra təcnis yada düşür nəhayət yaddaşlara həkk olunan:

***"İlahi! Belə də gözəl olarmı? -***
***Kimdi qələm çəkən nə gözəl çəkir.***
***Üz-üzə göz gözə sehirlənmişik,***
***Nə mən göz çəkirəm, nə gözəl çəkir.-***

- misraları yada düşür. L.N.Tolstoy nahaq yerə deməmişdir ki, şeir Allahların dilidir. O, adi dil deyil, poetik rəng almış, sözlərin yüksək ifadə formasıdır. Rus alimi Vereşşagin isə belə hesab edir ki, "şeir qənaət olunmuş və ifrat dərəcədə sıxılmış nitqdir... Şairlik işini ancaq mahir zərgər əməyi ilə müqayisə etmək olar. Axı söz də qızıl kimidir" - bu deyilənlər eyni ilə Məmməd İlqar yaradıcılığına şamil edilə bilər. Məmməd İlqara şairlik haqdan verilmiş Tanrı mükafatıdır, İlahi vergidir.

Dəyərli şair Məmməd Aslan yazır ki, təcnis hər söz sənətkarının girişə bilmədiyi, daha doğrusu, girişməyə cürət etmədiyi çətin şeir növüdür.

Doğrudur, hər şairin, yazarın, aşıq şeir şəkillərindən istifadə edənlərin yaradıcılığında barmaqla sayılacaq qədər təcnis görürük. Lakin bu çətin şeir şəkilindən Məmməd İlqar çox məharətlə istifadə edərək öz möhürünü vurmuşdur. Budur əsl sənətkarlıq, əsl Allah vergisi.

***Tapşır gözlərinə ilqara gəlsin,***
***Qıyma ki, ay qara, il qara gəlsin.***
***Gələn dərdin Məmməd İlqara gəlsin -***
***Neynər dərdli kəsə dərd innən belə?!***

Böyük Şəhriyar nahaq deməmişdir: "Şair ola bilməzsən, anan doğmasa şair".

Məmməd İlqar da şair doğulub, onu anası şair doğub, Tanrı onu şair olmaq üçün yaradıb, dilinə söz, əlinə qələm, beyninə hikmət verib. Bundan böyük Tanrı mükafatı varmı? Bundan böyük Tanrı sevgisi varmı? Ən böyük sərvət, ən böyük dövlətdi bu nemət. A.V.Lunaçarski şairin kimliyini, onun sənət və məharətini dəyərləndirərək yazırdı ki,: "Şair, hər şeydən əvvəl, müstəsna dərəcədə həssas, böyük daxili məzmuna, geniş dünya görüşə malik insandır, öz mədəni səviyyəsi və təbiətinin istedadlılığı etibarilə yüksələn, buna görə də dilin bütün məharət və şairanəlik qüdrətindən istifadə edərək öz hissləri ilə ətrafındakılara sirayət etməyə çalışan insandır". Bu fikirləri bilavasitə təcnis ustadı Məmməd İlqara aid etmək olar. Onun duyğulu qəlbi, kövrək düşüncələri, həssas ürəyi, daxili zənginliyi o qədər yüksəkdir ki, yuxarıda deyilən fikirlər azdır bəlkə.

Məmməd İlqar yaradıcılığının məsulları içərisində qoşma, gəraylı, divani, müxəmməs şeir şəkilləri, hətta qəzəl şeir növü də yer alıb. Ustad aşıq Avdı Qaymaxlı, nakam ömrün yol yoldaşı aşıq Cəlal Qəhrəmanov, dostlara vaxtsız əlvida söyləyən Ağamalı Sadiq Əfəndi də Məmməd İlqar qələminin boyalarına süzülüb ağ kağıza misralarla həkk olunub.

***Anam Qazax, adın düşsə dilimdən,***
***Məmməd İlqar qurtulmasın zülümdən!!***
***Zulum dərddər, zülüm çəkir əlimdən -***
***Canımda var, sən verdiyin dözüm ki!***

- deyən şairin Ana Vətən, doğulduğu torpaq şeirlərinin əsas qayəsi olub.

***İncənimi soruşursan əfəndim,***
***Dünyanın bir bucağında bir eldi.***
***Halal yığar, haramılar daşıyar,***
***Haram bişməz ocağında bir eldi...***

Ana obrazı Azərbaycan yazarının bir çoxunun şah obrazı olduğu kimi Məmməd İlqar yaradıcılığının da əvvəli və sonudur.

***Adına urvatdı bir söz yazmadım,***
***Göynəyə-göynəyə yazıram indi...***
***"Ölürəm" deyəndə qulaq asmadım, -***
***Yerinə ölməyə hazıram indi...***

Özünəməxsus üslubu ilə seçilən şairin dili laylalı, bayatılı xeyir dualıdır. Dağlara vəsf etdiyi şeirlərin öz gözəlliyi, öz dəyəri var.

***Yönü Vətən sarı, qərib bir qoca,***
***Bayatı çağırır: - eləmi dağlar...***
***Necə göynəməsin, gizildəməsin?***
***Çəkilib köksünə eləmi dağlar...***

Bu şeirdə Məmməd İlqar Vətən həsrətlilərin dilindən haray qoparır. Yurdu yuvası darmadağın olanların, ev-eşikləri topun tüfəngin altında qalanların dilindən söylənilmiş ağıdır sanki. Digər bir şeirində isə dağlara olan etimad, inam hissi özünü göstərir.

***Köhnə dostdu! -***
***Təzə kədər.***
***Ömür nədi? -***
***Qəza-qədər***
***Bir də gələn yaza qədər***
***Dağlar, Məmməd amanatı!***

***Buludlar boşalar gedər,***
***Həvəsi baş alar gedər,***
***Dumana qoşular gedər,***
***Dağlar, Məmməd amanatı!***

Özünü dağların yaddaşından silinmiş hesab edən şair dağların yaddaşını təzələyir.

***Ömrün o başından dönüb gəlmişəm,***
***Mənəm,***
***Başınıza dönüm, gəlmişəm.***
***Bəs məni yandırıb, nə yaxırsınız,***
***Belə maddım-maddım nə baxırsınız.***
***Bax bu palıdların budaqlarında***
***Yellənən oğlanam, a dağ yolları.***
***Sorub baldırğanla bulaqlarından,***
***"Keflənən" oğlanam, a dağ yolları,***
***Mən həmən oğlanam, a dağ yolları.***

Məmməd İlqar yaradıcılığı axımlı, yadda qalan, folklor örnəklərini qoruyub saxlayan və ehtiva edən, aşıq şeir şəkillərindən düzgün istifadə edən, zəngin bir yaradıcılıqdır. Sazın pərdələrində dillənən şeirdir onun şeirləri. O üzdəndir ki, aşıqlar Məmməd İlqar yaradıcılığından tez-tez istifadə edirlər. Şeirlərində gözlərinin nəmini, qəlbinin kövrəkliyini, ürək döyüntülərini, sazlı-sözlü diyardan olduğunu aydın görmək olur. Öz-özünü tənbeh edən, etibardan söz açan, vəfadan danışan dönük olmağı dostluğa yaraşdırmayan şair belə deyir:

***...Keçdim günahından dönük dostların,***
***Keçin günahımdan vəfalı dostlar...***

Bu gün ömrünün qızıl payızını yaşayan, elinin fəxrli övladı, şair balası, anasının laylasını yenidən duymaq istəyib, nəfəsini qoxlamaq istəyən Məmməd İlqarın yaradıcılığı diqqətə layiq bir yaradıcılıqdır.